UOT 330:343

# İQTİSAD ELMİNDƏ GİZLİ İQTİSADİYYAT FENOMENİ: MÖVCUD ARAŞDIRMALARIN ƏSAS İNKİŞAF İSTİQAMƏTLƏRİNƏ BİR BAXIŞ

**Elşən Rəsul oğlu Bağırzadə***
Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı

*"Yüksək vergilər, bəzən vergiyə cəlb olunan əmtəələrin istehlakını azaltmaq və bəzən də vegidən yayınmanı təşviq etmək yoluyla, nəticədə nisbətən aşağı vergi dərəcələrilə müqayisədə daha az vergi yığımına səbəb olur ... Əgər vergi gəlirlərindəki bu azalma vergidən yayınma səbəbindən baş verirsə, onu iki yolla; ya vergidən yayınma həvəsini azaltmaq, ya da vergidən yayınmanı çətinləşdirməklə aradan qaldırmaq olar. Vergidən yayınma həvəsinin azaldılması ancaq vergi dərəcələrinin aşağı salınmasıyla, vergidən yayınmanın çətinləşdirilməsi isə onun qarşısını ala biləcək ən münasib idarəetmə sisteminin formalaşdırılmasıyla mümkündür"*

Adam SMIT, "Millətlərin Zənginliyi", 1776

## Xülasə

*Tədqiqatın məqsədi:* gizli iqtisadiyyatın genezisi, gizli iqtisadiyyat tədqiqatlarının təkamülünün və müasir meyllərinin təsbit edilməsidir.

*Tədqiqatın metodologiyası:* ümumnəzəri elmi metodlarla yanaşı, tarixi ardıcıllıq və fənlərarası yanaşma metodlarından ibarətdir.

*Tədqiqatın nəticələri:* gizli iqtisadiyyatın insanlığın tarixi qədər qədim olduğunun ortaya çıxması; tarixin müxtəlif dövrlərində problemlə bağlı araşdırmalara rast gəlinsə də, onun sistemli tədqiqinin XX əsrə, xüsusilə iqtisad elmində instutsionalizm məktəbinin yaranışına təsadüf etməsinin məlum olması; gizli iqtisadiyyat anlayışının dəqiqləşdirilməsi, onun kəmiyyət qiymətləndirməsi, yaranma səbəbləri, doğurduğu sosial-iqtisadi nəticələr və problem üzrə dövlət siyasətinin formalaşdırılması məsələlərilə bağlı bir-birilə kəskin rəqabətli çoxsaylı konsepsiya və yanaşmalardan ibarət olduğunun üzə çıxarılması; əlaqəli tədqiqatlarda problemin çoxaspektli xarakterindən irəli gələrək, iqtisadi, sosioloji, kibernetik və hüquqi yanaşmaların ayrılmasının müəyyən olunması; son illər gizli iqtisadiyyatla bağlı tədqiqatlarda daha müfəssəl nəticələrin əldə edilməsi məqsədilə bütün yanaşmaları özündə birləşdirən fənlərarası yanaşmaya (interdiscipilinary approach) üstünlük verilməsinin ortaya çıxması.

* Bakı, AZ 1000, Azərbaycan Dövlət İqtisad Universiteti, İstiqlaliyyət küç. 6
e.bagirzade@gmail.com



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

*Tədqiqatın məhdudiyyətləri:* Azərbaycanda problemlə bağlı elmi tədqiqatların hədsiz məhdudluğu, bununla da ölkədə problem haqqında keçmiş və müasir elmi-nəzəri baxışların təqdim edilə bilməməsi.

*Tədqiqatın praktiki əhəmiyyəti:* gizli iqtisadiyyatın genezisi, onun tədqiqatlar tarixinin təkamülü və müasir meyllərinin düzgün dərk edilməsinə imkan verməsi.

*Tədqiqatın orjinallığı və elmi yeniliyi:* iqtisadi məktəblərin gizli iqtisadiyyata baxışlarının təqdim edilməsi, problemlə bağlı tədqiqatların əsas inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və Azərbaycandilli ədəbiyyatda bu istiqamətdəki ilk tədqiqat olması.

**Açar sözlər:** *iqtisadi nəzəriyyə, gizli iqtisadiyyat, instutsionalizm, makroiqtisadiyyat, vergiqoyma.*

## 1. Giriş

Müasir gizli iqtisadiyyat nəzəriyyəsi gizli iqtisadiyyat probleminin müxtəlif aspektlərilə bağlı bir-birindən ciddi şəkildə fərqlənən çoxsaylı yanaşmaları özündə birləşdirir. Araşdırmalar göstərir ki, mövcud fikir müxtəlifliyinin təməlində məhz bu fenomenin mahiyyəti və iqtisadiyyatdakı yerinin müəyyən edilməsilə bağlı ortaya çıxan fərqli baxışlar dayanır. Belə ki, tədqiqatçıların gizli iqtisadiyyat anlayışına verdiyi tərifdən irəli gələrək, onun kəmiyyət qiymətləndirməsi, səbəbləri, təsirləri və onunla mübarizə yolları haqqında irəli sürdüyü fikirləri də fərqlənir. Bu baxımdan müasir gizli iqtisadiyyat nəzəriyyəsi gizli iqtisadiyyat anlayışı və onun mahiyyətinin şərh edilməsinə xüsusi önəm verir ki, bu da ilk növbədə gizli iqtisadiyyatın genezisi, gizli iqtisadiyyat tədqiqatlarının tarixi təkamülü və müasir meyllərinin düzgün dərk edilməsini tələb edir.

## 2. Gizli iqtisadiyyat fenomeninin genezisi

Bir fenomen kimi gizli iqtisadi fəaliyyətlərə iqtisadi subyektlərin mövcud instutsional normalardan irəli gələn öhdəliklərə lazımi səviyyədə əməl etməməsi və ya ümumiyyətlə bu tipli öhdəliklərdən tamamilə boyun qaçıraraq, nəticədə gizliliyə yuvarlanması aspektindən yanaşsaq, onda asanlıqla qeyd edə bilərik ki, bu növ fəaliyyətlərin meydana çıxması tarixi insanlığın tarixi qədər qədimdir. Belə ki, bəşər sivilizasiyasının ilkin dövrlərindən başlayaraq, cəmiyyət həyatının bütün sferaları kimi iqtisadi fəaliyyət sferasında da müəyyən instutsional normalar formalaşmış və iqtisadi subyektlərin fəaliyyəti cəmiyyət və ya hər hansı bir cəmiyyətüstü qüvvə tərəfindən bu və ya digər formada sanksiyalaşdırılmışdır. Hələ dövlətlər meydana gəlməmişdən öncə, insanlar kollektiv əmək və yardımlaşmaya əsaslanan qəbilələr halında həyat sürən zaman, qəbilə və tayfa başçılarına hədiyyələr verilməsi ənənəsi getdikcə institutlaşaraq, məcburi hal almış, bu və ya digər fəaliyyət növləri ilə bağlı ictimai təqdir və qadağaları özündə birləşdirən normalar formalaşmışdır. Eyni zamanda belə normalardan tamamilə və ya qismən yayınaraq, həyatını sürdürmək istəyənlər də tapılmışdır ki, onlar da məcburən gizli davranmağa meyl etmişdir (Canbay, 2009 : 1-25, Yereli və Karadeniz, 2004 : 8, Musayev və Qəhrəmanov, 2004:112-114).

Sonralar cəmiyyətüstü qüvvə kimi dövlətlər yarandı və bu normalar daha da genişlənib həyatın bütün sahələrini əhatə etməyə, eyni zamanda onlara əməl edilməməsi də, subyektləri hər cür güc və imkana sahib olan fövqəladə qüvvə - dövlətlə üz-üzə qoymağa başlamışdır. Bu qanunla qadağan olunan

fəaliyyətlərlə məşğul olmaqla yanaşı, iqtisadi fəaliyyətlərlə bağlı dövlətə verilməli olan vergi və yığımlardan yayınmaq və ya ondan boyun qaçırmaqla da bağlı idi (Giray, 2010:7-17, Canbay, 2009:1-25). Tədqiqatlar göstərir ki, məhz dövlətlərin meydana gəlməsindən sonra iqtisadi həyatı tənzimləyən normaların əhatə dairəsinin genişlənməsi və həmçinin vergilər, rüsumlar və digər bu tipli məcburi yığımların çoxalması iqtisadi fəaliyyətlərdə də gizlilik hallarının geniş təzahürünü doğurmuşdur (Латов və Ковалев, 2006 : 43). Sterling Seagrave "Roma Lordları" (Lords of the Rim) adlı əsərində göstərir ki, hələ e.ə 2000-ci illərdə Çin tacirləri öz sərvətlərini hökmdar tərəfindən əllərindən alınacağı qorxusundan müxtəlif yollarla gizlədir, onları uzaq şəhərlərə və hətta Çindən kənarda investisiyaya yönəldirdilər (Erdağ, 2007 : 122). Eradan əvvəl 81-ci ilə aid "Dəmir və Duz Haqqında Diskussiya" adlı Çin kitabəsində üzərində dövlət monopoliyası olan dəmir və duzun gizli istehsalından bəhs olunur (Латов və Ковалев, 2006 : 43). Assuriya ticarət yazışmalarını tədqiq edən alimlər, o dövrdə Anadolu ərazilərinə ixrac edilən malların dövlətə ödənəcək rüsumlarından yayınmaq məqsədilə, saxta gömrük bəyannamələrindən istifadə edildiyini qeyd edirlər (Çelik, Koçağra və Güler, 2000 : 8). ABŞ-ın iqtisadi tarix araşdırmaları ilə tanınan iqtisadiyyat professoru Hans Senhaulz isə göstərir ki, Qədim Roma və Misir kimi ölkələrdə tiranların iqtisadi sferanın müxtəlif istiqamətlərində sərt normalar tətbiq etməsi insanları təbii olaraq alternativ axtarışlara sövq edirdi ki, bu da ya gizliliyə (*underground - andəqraund*) yönəlmə, ya ölkəni tərk etmə, ya da üsyanlarla nəticələnirdi (Sennholz, 2003 : 3).

Orta əsrlərdə dini qurumların da güclənməsi ilə iqtisadi fəaliyyətlər üzərindəki "ictimai yük" artmış, gəlir, sərvət və gömrük vergiləri yüksəlmiş, qanunla qadağan olunan fəaliyyətlər dairəsi də genişlənmişdir. Digər formalarla yanaşı, bu dövrün tipik gizli iqtisadi fəaliyyətlərinə sələmçilik, fahişəlik, qaçaqmalçılıq və. s. göstərmək mümkündür (Yereli və Karadeniz 2004:8, Латов və Ковалев, 2006 : 44; Lemieux, 2007 : 9, Canbay, 2009:25-43, Giray 2010 : 18-21).

Dünya iqtisadiyyatında başlayan sənayeləşmə dövrünün əksər ölkələrində isə şəhərlə kənd arasında kəskin sosial-iqtisadi fərqə əsaslanan dualist iqtisadiyyatın və genişlənən istehsal və miqrasiya hesabına böyük şəhərlərin meydana gəlməsi, sosial-iqtisadi həyata nəzarət imkanlarının da zəifləməsini doğurmuş, nəticədə həmin dövrün xüsusilə iri şəhərlərində iqtisadi cinayətkarlığın və qeyri-rəsmi fəaliyyətlərin demək olar ki, bütün formalarına təsadüf edilmişdir (Yereli və Karadeniz, 2004:8).

XX əsrin əvvəllərindən baş verən müharibələr, güclü silahlanma və "sosial dövlət" ideyasının geniş vüsət alması, dövlətin iqtisadi həyata nəzarət və ona müdaxilə imkanlarının daha da genişlənməsinə səbəb olmuş, artan ictimai xərclərin maliyyələşdirilməsi məqsədilə iqtisadi fəaliyyətlər üzərindəki fiskal öhdəliklər də ağırlaşdırılmışdır. Belə bir şəraitdə, ağırlaşan fiskal öhdəliklərin dövlətin səmərəsiz fəaliyyət göstərməsi ideyası ilə də birləşməsi nəticəsində iqtisadi subyektlərin sistemli şəkildə qeyri-rəsmi fəaliyyətlərə yönəlməsi başlamışdır (Yereli və Karadeniz, 2004:8-9).

1960-cı illərdən başlayan postsənaye dövründə isə xidmətlər sektorunun genişlənməsi, qloballaşmanın doğurduğu kəskin rəqabətin istehsalın elastikliyini (*flexibility - fleksibiliti*) yüksəltməsi, daha ucuz məhsul istehsalını təşviq etməsi və kiçik ölçülü bazar subyektlərinə geniş imkanlar açması, yeni texnologiyaların fəaliyyətlərin gizliliyini qoruyub saxlamaq imkanlarını yüksəltməsi, həmçinin dünya iqtisadiyyatının böyük bir

hissəsini təşkil edən sosialist sistemin çöküşü və məşhur Macar iqtisadçısı Janos Kornainin də qeyd etdiyi kimi tarixdə görünməmiş bir miqyasda sosial-iqtisadi transformasiya prosesinin başlaması kimi amillər gizli iqtisadiyyatların da inkişafına təkan vermiş və onun bütün tipik formalarını meydana çıxarmışdır (Chen, 2004 : 7; Güngör, 1997 : 61; Yılmaz, 2006 : 48-49).

**3. İqtisad elmi və gizli iqtisadiyyat fenomeni**

Göründüyü kimi dünya iqtisadiyyatında gizli iqtisadi fəaliyyətlərə hələ qədim dövrlərdən rast gəlinir. Problemlə bağlı ideya və baxışların formalaşması da məhz o dövrlərdən başlamışdır. Qədim dövrün şifahi xalq ədəbiyyatı nümunələrində, Qədim Yunan və Şərq filosoflarının, həmçinin orta əsr sxolastiklərinin əsərlərində o dövrün sosial nizamı ilə ziddiyyət təşkil edən antisosial davranışlara, xüsusilə də antisosial iqtisadi davranışlara diqqət yetirildiyi məlumdur. XIV əsr Şərq mütəfəkkiri İbn Haldunun isə məşhur “Müqəddimə” əsərində dövlətlərin yaranması, inkişafı və süqutu prosesini, “artan dövlət xərcləri → artan vergi yükü → azalan istehsal və vergi ödəmə istəyi → azalan dövlət gəlirləri” səbəb-nəticə ardıcıllığı ilə izah etməsi, onun müəyyən mənada vergi yükü və gizli iqtisadiyyat arasındakı əlaqəni hələ o dövrdə görə bildiyini üzə çıxarır (İbn Haldun, 2007 : 539-570). Halbuki bu qanunauyğunluq, iqtisad elmində yalnız 600 il sonra Artur Laffer tərəfindən ifadə edilmişdir.

İqtisad elmində gizli iqtisadiyyat fenomeninin tədqiqi məsələsinə gəldikdə, ilk növbədə onu qeyd etməliyik ki, bu elmin mövcud məktəbləri nəzəri baxışlarını təbii olaraq, iqtisadiyyatın formal və ya rəsmi sektoru əsasında formalaşdırdıqlarından uzun müddət öz tədqiqatlarında bu fenomenə elə də geniş yer ayırmamışlar. Əslində rəsmi sektora bir növ alternativ olan və fəaliyyət mexanizmi baxımından da ondan ciddi şəkildə fərqlənən gizli sektoru birgə tədqiq edərək nəzəriyyələr formalaşdırmaq da kifayət qədər çətin məsələdir. Lakin buna baxmayaraq, iqtisad elminin müxtəlif məktəblərinə daxil olan iqtisadçıların vaxtaşırı bu fenomenin bu və ya digər aspektinə diqqət yetirdiklərini görmək mümkündür.

***3.1. İqtisadi məktəblərin gizli iqtisadiyyata baxışı***

Klassik iqtisadçılar gizli iqtisadiyyat problemini daha çox vergidən yayınma aspektindən tədqiq etmişlər. Adam Smith 1776-cı ildə nəşr etdirdiyi məşhur “Millətlərin Zənginliyi” əsərində məntiqə sığmayan vergilərin vergidən yayınma, başqa sözlə gizli iqtisadiyyat doğuracağını qeyd edərək yazır: “Məntiqə sığmayan bir vergi insanın daxilinə haqlı bir fitil soxaraq, onu qaçaqçılığa çağırır. Ancaq qaçaqçılıq cəzalarının bu çağırışa mütənasib olaraq yükəldilməsi zəruridir” (Smith, 2006 : 929). Smith bu əsərində, həmçinin yüksək vergi dərəcələrilə gizli iqtisadiyyat arasındakı əlaqə, gizli iqtisadiyyatla mübarizə və onun leqallaşdırılması məsələlərinə də toxunur: “Yüksək vergilər, bəzən vergiyə cəlb olunan əmtəələrin istehlakını azaltmaq və bəzən də vegidən yayınmanı təşviq etmək yoluyla, nəticədə nisbətən aşağı vergi dərəcələrilə müqayisədə daha az vergi yığımına səbəb olur... Əgər vergi gəlirlərindəki bu azalma vergidən yayınma səbəbindən baş verirsə, onu iki yolla; ya vergidən yayınma həvəsini azaltmaq, ya da vergidən yayınmanı çətinləşdirməklə aradan qaldırmaq olar. Vergidən yayınma həvəsinin azaldılması ancaq vergi dərəcələrinin aşağı salınmasıyla, vergidən yayınmanın çətinləşdirilməsi isə onun qarşısını ala biləcək ən münasib idarəetmə sisteminin formalaşdırılmasıyla mümkündür” (Smith, 2006 : 1001). Adam Smith tərəfindən irəli sürülən bu kon-

septual yanaşma müasir gizli iqtisadiyyat nəzəriyyəsində gizli iqtisadiyyatın leqallaşdırılması ilə bağlı baxışların əsasında dayanmaqdadır. Klassik iqtisadçılardan David Rikardo, Henry Parnell, Jules Dupuit və digərlərinin də problemə baxışları təxminən bu istiqamətdə olmuşdur (Aktan, 2008 : 57-58).

Klassik iqtisadın tənqidi nəticəsində yaranmış elmi məktəblərdən biri olan Milli İqtisadiyyat Cərəyanının görkəmli nümayəndəsi, Alman iqtisadçısı  Friedrich List isə 1841-ci ildə yazdığı və milli iqtisadiyyatın yüksək proteksionist tədbirlərlə qorunmasının zəruriliyini göstərdiyi “Siyasi İqtisadın Milli Sistemi” adlı əsərində dəbdəbəli mallara qarşı qoyulacaq protektiv məqsədli yüksək gömrük rüsumlarının bu məhsulların qaçaq (gizli) dövriyyəsini formalaşdıracağını qeyd etmişdir (List, 2010: 223).

Eyni zamanda klassik məktəbin bir növ davamı olan və onun irəli sürdüyü tezisləri mikrosəviyyəli araştırmalarla dəstəkləyən Neoklassik məktəbdə ilk dəfə olaraq gizli iqtisadi subyektlərin davranışlarına nəzər yetirilərək, onların gizli iqtisadiyyata keçid qərarına təsir göstərən başlıca amilə toxunulmuşdur. Belə ki, bu məktəbin görkəmli nümayəndələrindən olan ingilis iqtisadçısı Alfred Marshall 1890-cı ildə nəşr etdirdiyi “İqtisadın prinsipləri” adlı əsərində konkret misal üzərində göstərir ki, vergilər bəlli səviyyəyə endirildikdə onu ödəmək, ondan yayınmaqdan daha ucuz başa gəlir və nəticədə vergi yığımı yüksəlir (Marshall, 2010 : 516). Göründüyü kimi, Marshall ilk dəfə olaraq, iqtisadi subyektlərin gizli sektora yönəlmə qərarı qəbul etmələrində onların bu davranışla bağlı apardıqları gəlir-xərc təhlilinin böyük rolu olduğunu görə bilmişdir.

Məlumdur ki, XX əsrdə İnstitutsionalizm məktəbini ayrı tutmaq şərtilə, iqtisadi məktəblərin tədqiqat obyekti daha çox makroiqtisadi problemlər olmuşdur. Bu baxımdan gizli iqtisadiyyat fenomenini də daha çox iqtisadi siyasət, xüsusilə də maliyyə siyasəti baxımından şərh etməyə çalışmışlar. Belə ki, bu dövrdə ortaya çıxan Keynsçilik, Monetarizm, Təklif iqtisadiyyatı kimi məktəblər gizli iqtisadiyyatla bağlı məsələlərə özlərinin milli gəlir və vergi siyasəti konsepsiyasını formalaşdırmaq baxımından yanaşmışlar. Belə ki, Keynsçi gəlir-xərc modellərinin birbaşa milli gəlirlə bağlı olması və Kuznets rəhbərliyində milli gəlir hesablama metodlarının inkişafı gizli iqtisadiyyatı da tədqiqat predmetinə çevirmişdir. İqtisadi tsikllər sahəsində isə milli gəlir hesablamalarını inkişaf etdirməyə paralel olaraq, “məcmu iqtisadi fəaliyyət”, yəni rəsmi və gizli iqtisadi fəaliyyətlərin məcmusu (aggregate economic activity) ifadəsi, ilk dəfə 1946-cı ildə A.F.Burns və W.C.Mitchell tərəfindən işlədilmişdir. Bütün bunların məntiqi davamı olaraq da, ilk dəfə 1958-ci ildə P. Cagan gizli iqtisadi fəaliyyətlərin kəmiyyət qiymətləndirməsinə cəhd etmişdir (Kalça, 2008:213-214).

Bu istiqamətdə xüsusilə fərqlənən Təklif iqtisadiyyatı məktəbinin görkəmli nümayəndəsi Artur Laffer isə iqtisadi ədəbiyyata Laffer Effekti kimi daxil olan məşhur nəzəriyyəsində vergi yükü ilə vergi yığımı arasındakı əlaqəni şərh edərək qeyd edir ki, bəlli bir həddən sonra vergi yükünün artırılması, məcmu təklifin məhdudlaşdırılmasına və vergidən yayınmanın (gizli sektorun) genişlənməsinə səbəb olmaqla, nəinki vergi yığımını artıracaq, hətta onu aşağı salacaqdır (Aktan, 2008 : 53).

Eyni zamanda Monetarizmin banisi Milton Friedman də ilk nəşrini 1982-ci ildə yayınladığı məşhur “Kapitalizm və Azadlıq” əsərinin “Gəlir bölgüsü” hissəsində proqressiv vergi sisteminə əsaslanan vergi siyasətini tənqid edərək, bunun iqtisadi subyektlərin daha çox gəlir əldə etmək həvəsini cilovladığını və daha yüksək gəlir diliminə düşməmək üçün

vergidən yayınmaya, başqa sözlə gizli iqtisadiyyata səbəb olduğunu qeyd edir. Bunun üçün də o, vahid dərəcəli vergi sistemi konsepsiyasını irəli sürürdü (Friedman, 2008 : 231-238).

### *3.2. İnstutsionalizm və gizli iqtisadiyyatın sistemli tədqiqinə başlanması*

Qədim tarixə malik olan gizli iqtisadi fəaliyyətlərlə bağlı araşdırmalara tarixin müxtəlif mərhələlərində rast gəlinsə də, tədqiqatlarımız göstərir ki, əslində onun bir elmi problem kimi sistemli tədqiqi elə də qədim tarixə malik deyildir. Belə ki, XX əsrə qədər müxtəlif peşə sahibləri və mütəfəkkirlərin əsərlərində gizli iqtisadiyyatın bu və ya digər aspekti ilə bağlı fikirlərə təsadüf olunsa da, onlar heç vaxt sistemli xarakter daşımamış və elmi biliyin tələblərinə cavab verməmişdir. Həmçinin iqtisad elmi çərçivəsində aparılan tədqiqatlar da demək olar ki, uzun müddət iqtisadiyyatın formal strukturunu əhatə etmiş və formal iqtisadiyyatın xaricindəki proseslərə çox az diqqət yetirilmişdir. Lakin XX əsrin əvvəllərindən başlayaraq, həm gizli iqtisadi fəaliyyətlərin dünya iqtisadiyyatındakı rolunun artması və həm də iqtisad elminin tədqiqat predmetini iqtisadiyyatın qeyri-formal, sosial, siyasi və hüquqi aspektlərini əhatə edəcək şəkildə genişləndirən institusional iqtisad məktəblərinin formalaşması ilə, gizli iqtisadiyyat iqtisad elminin sistemli şəkildə tədqiq olunan mühüm problem istiqamətlərindən birinə çevrilmişdir. Xüsusilə qeyd olunmalıdır ki, XX əsrin 70-ci illərindən başlayaraq, bu istiqamətdə aparılan tədqiqatlar həm kəmiyyət, həm də keyfiyyət baxımından yeni inkişaf mərhələsinə daxil olmuş və demək olar ki, bütün iqtisad məktəblərini əhatə etməklə müasir gizli iqtisadiyyat nəzəriyyəsini formalaşdırmışdır (Голованов, Перекислов və Фадеев, 2003 : 9 ; Yereli və Karadeniz, 2004 : 9 ; Çetintaş və Vergil, 2003 : 16).

XX əsrin əvvəllərindən başlayaraq, xüsusilə də Amerika mətbuatında kriminal iqtisadi fəaliyyətlərin miqyası və əsas xüsusiyyətləri ilə bağlı yazılara tez-tez rast gəlmək mümkündür. 1949-cu ildə Amerikan kriminoloqu E. Saterland "ağyaxalıqlılar arasındakı kriminallıq" konsepsiyasını irəli sürərək, "böyük biznes"in gündəlik iş praktikasının inteqral komponentləri kimi gizli, qeyri-leqal fəaliyyətlərə diqqəti cəlb etmişdir (Латов və Ковалев, 2006 : 55). Həmçinin bu dövrdə əsasən Qərb iqtisadçıları tərəfindən aparılan gizli iqtisadiyyatla bağlı tədqiqatlar daha çox gizli məşğulluq və əmək bazarı aspektində olmuşdur (TÜSİAD, 2006 : 27-30 ; Langlois, Boismenu, Lefebvre və Regimbald 2003 : 107-108).

1950-ci illərin ortalarında gizli iqtisadiyyatla bağlı tədqiqatlar inkişaf iqtisadiyyatı çərçivəsində daha çox inkişaf etməkdə olan ölkələrin dual strukturu ilə bağlı olmuşdur. Bu dövrdə iqtisadi inkişafın modelləşdirilməsi ilə məşğul olan W.Arthur Lewis İnkişaf etməkdə olan ölkələrin əsasən rəsmi fəaliyyət göstərən sənaye sektorundan kənarda qalan və demək olar ki, gizli iqtisadi sektora aid olan ənənəvi aqrar istehsal vahidləri, kiçik tacir və sənətkarların sənaye inkişaf etdikcə rəsmi sektor tərəfindən "həzm" edilərək aradan qaldırılacağını göstərirdi (Purkis, 2006 : 6 ; Chen, 2004 : 4). Həmçinin ilk dəfə olaraq, 1958-ci ildə P.Cagan ABŞ-da II dünya müharibəsi illərindəki bəyan edilməyən gəlirlərin (*unreported income - bəyan olunmamış gəlir*) monetar metodlarla proqnozlaşdırılmasını həyata keçirmişdir (Schneider və Enste, 2002 : 19).

1960-70-ci illərə gəldikdə, Lewisin irəli sürdüyü hipotez özünü doğrultmadı. Belə ki, inkişaf etməkdə olan ölkələrin bir çoxunda iqtisadi inkişaf, işsizliyin azalmasını və ya ənənəvi iqtisadiyyatın (demək olar ki, gizli) zaman keçdikcə aradan qaldırılmasını təmin edəcək modern iş yerlərini formalaşdıra

bilməmiş və 1960-cı illərin ortalarından iqtisadi inkişafla bağlı optimist gözləntilər xronik işsizlik qayğıları ilə əvəzlənməyə başlanmışdır. Belə bir vəziyyətin yaranmasında sosial dövlət anlayışının ifrat həddə çatmasının nəticəsi hesab olunan əlavə məşğulluğun işəgötürənlər üçün "maya dəyəri"nin yüksəlməsi, neft böhranları kimi amillərin də mühüm rolu olmuşdur. Nəticədə həmin dövrdən başlayaraq, əksər ölkələrdə gizli məşğulluq, eyni vaxtda müxtəlif işlərdə işləmək, vergidən yayınma kimi proseslər geniş vüsət almağa başlamışdır. Məhz elə bu dövrlərdə Qanada məşğulluqla bağlı araşdırmalar (1971-1973) aparan sosial antropoloq Keith Hart iqtisadiyyatdakı gizli fəaliyyətlərin özünəməxsus xüsusiyyətləri olan müstəqil bir sektor kimi araşdırılmasının zəruriliyini göstərmişdir. Keith Hart gizli iqtisadi fəaliyyətləri "qeyri-formal sektor" anlayışı ilə ifadə edərək, akademik müstəvidə işlədən ilk elm adamı olmuş və onun sayəsində gizli iqtisadiyyat elm adamları tərəfindən iqtisadiyyatın müstəqil bir sahəsi kimi tədqiq olunmağa başlanmışdır (Chen, 2004 : 5; Güngör, 2007 : 58; Gërxani, 2008 : 89; Латов və Ковалев, 2006 : 91-95).

Qeyd olunduğu kimi bu dövrdə iqtisadi siyasət və iqtisadiyyatla bağlı təhlillərin istiqamətini müəyyən edən əsas amil olduqca aktual olan işsizlikdir. Məhz işsizliklə bağlı artan qayğılar səbəbilə həmin dövrdə Beynəlxalq Əmək Təşkilatı (BƏT) "məşğulluq missiyası" kimi ifadə edilən bir qisim sahəvi araşdırmalar aparmışdır. Müxtəlif ölkələri əhatə edən bu araşdırmaların ilki olan Keniya missiyasının (1972) hesabatında, xüsusilə Keniya kimi iqtisadi inkişafını uğurla reallaşdıra bilməyən ölkələrdə ənənəvi iqtisadiyyatın və əmək bazarının gözlənildiyi kimi transformasiyaya uğramadığı göstərilir və eyni zamanda inkişaf etməkdə olan ölkələrin gizli iqtisadiyyatın sabit qalmayıb, inkişaf etdiyi qeyd edilir. Həmçinin o da göstərilir ki, gizli iqtisadiyyat təkcə kiçik və qeyri-məhsuldar firmalarla məhdudlaşmayıb, rentabelli və məhsuldar firmaları da əhatə etməyə başlamışdır (Chen, 2004 : 5).

BƏT bu tədqiqatları ilə də dəstəklənən K.Hart, S.V.Sethuraman və V.Tokman kimi mütəxəssislərin formalaşdırdığı gizli iqtisadiyyatın dualist məktəbinə görə gizli iqtisadi fəaliyyətlərin mövcudluq səbəbi, iqtisadi artımın əhali artımına nisbətlə aşağı olması nəticəsində, daha çox iş qüvvəsini məşğulluqla təmin edəcək modern işlərin yaradıla bilməməsidir. Gizli iqtisadiyyata pozitiv yanaşma tərzi ilə seçilən bu məktəbdə gizli iqtisadiyyat, rəsmi iqtisadiyyatdan tamamilə müstəqil şəkildə qəbul edilmiş, zəif təbəqələr üçün gəlir mənbəyi, böhran dövrləri üçünsə bir növ "sığorta" kimi göstərilmişdir (Chen, 2004 : 6).

Bu dövrdə gizli iqtisadiyyatla bağlı tədqiqatlara mühüm töhfələrdən biri də Amerikan neoinstutsionalisti G.Bekkerin 1968-ci ildə nəşr etdirdiyi "Cinayət və cəza: iqtisadi yanaşma" adlı məqaləsi olmuşdur. G.Bekker ilk dəfə olaraq, kriminallığa, eləcə də iqtisadi kriminallığa öz mənfəətini maksimumlaşdırmağa çalışan rasional fərdin fəaliyyəti kimi yanaşmış və gizli iqtisadiyyat nəzəriyyəsi üçün yeni bir cığır açmışdır (Латов və Ковалев, 2006 : 134-138). G.Bekkerin bu tədqiqatı metodoloji yanaşma baxımından Alfred Marshallın vergidən yayınma ilə bağlı fikirlərinə çox yaxındır.

Bununla yanaşı, 1960-70-ci illərin gizli iqtisadiyyatla bağlı tədqiqatlarında dualist məktəbin hakim mövqeyi ilə paralel şəkildə, xüsusilə Anqlo-sakson ölkələrində onun kəmiyyət qiymətləndirməsinin zəruriliyinin qabardılması və bu istiqamətdəki tədqiqatların əsasının qoyulmasına da başlanmışdır. Bu tədqiqatçıların arasında P.Gutmann, E.Feige, F.Park, K.Macafee və M.O'Higgins xüsusilə fərqləndiyini görmək mümkündür (Schneider və Enste, 2002 : 15-28).

1980-cı illərə gəldikdə isə gizli iqtisadiyyat, xüsusilə iqtisadi transformasiya prosesində olan ölkələrdə (ABŞ, İngiltərə, Türkiyə, Çin, SSRİ və s.) genişlənməyə davam etmiş və bu, transformasiyanın bir hissəsi kimi qəbul edilməyə başlanmışdır. Bu dövrdə reallaşan iqtisadi transformasiyanın nəticəsində dövlət müəssisələrinin bağlanması və dövlətin istehsaldakı payının getdikcə azalması səbəbilə işsiz qalan işçilərin gizli iqtisadiyyata yönəlmələri, gizli iqtisadiyyatın inkişaf səbəblərindən biri kimi qəbul edilmişdir. Eyni zamanda bu illərdə əldə edilən gəlirlərə tətbiq edilən vergi və sosial sığorta kimi ictimai öhdəliklərin miqdarının artırılması, insanları rəsmi iqtisadiyyatın xaricində gəlir axtarmağa sövq etmişdir. Bu dövrdə aparılan tədqiqatlar, makroiqtisadi sabitliyi təmin etmiş və artım trendinə daxil olmuş iqtisadiyyatlar da daxil olmaqla, iqtisadi böhranlar kimi bəzi şokların nəticəsində gizli iqtisadiyyatın qarşısını almağa yönələn siyasətlər tətbiq edilmədiyi təqdirdə gizli iqtisadiyyatın daimi və inkişafda olacağını göstərmişdir (TÜSİAD, 2006:28-29).

Gözlənilənlərin əksinə, gizli iqtisadiyyatın 1980-cı illərdə sənayeləşmiş cəmiyyətlərdə belə mövcudluğu və hətta inkişaf etməsi gizli iqtisadiyyatla bağlı əvvəlki təsəvvürlərin dəyişməsinə səbəb olmuşdur. Təsəvvürlərdə yaranan bu dəyişiklik həmin dövrdə populyar olan və Caroline Moser və Alexandro Portes kimi elm adamları tərəfindən rəhbərlik edilən strukturalist məktəbin gizli iqtisadiyyatı, istehsal, xüsusilə də əmək xərclərini aşağı salaraq, böyük kapitalist firmaların rəqabət imkanlarını artıran əlavə iqtisadi potensial və işçilər kimi ifadə etməsindən də görünür. Onlar qeyri-formallığı əmək bazarının ekzogen amili kimi qəbul etmir və onu ifrat dövlət tənzimləmə tədbirlərinin deyil, firmaların rəqabət qabiliyyətliliyi artırma tədbirlərinin nəticəsi hesab edirlər. Qeyd edirlər ki, qeyri-formallıq istehsalın restruktruzasiyasına və xərclərin aşağı salınmasına şərait yaratmaqla, əmək bazarının endogen amili kimi nəzərdə tutulmalıdır (Chen, 2004 : 6).

Göründüyü kimi dualist məktəbdə gizli və rəsmi iqtisadiyyat bir-birindən müstəqil qəbul edilərək, onun məşğulluq aspekti araşdırıldığı halda, strukturalist məktəbdə gizli iqtisadiyyat və rəsmi iqtisadiyyat arasında qarşılıqlı münasibətin mövcudluğu qəbul edilmişdir. Strukturalistlər, gizli iqtisadiyyatın məşğulluq aspektinin xaricinə çıxaraq, onun firmalar tərəfindən istehsal xərcləri daxilində, xüsusilə əmək xərclərini aşağı salmaq məqsədilə şüurlu bir şəkildə seçildiyini qəbul etmişdir. Bu məktəbdə gizli iqtisadiyyatın ortaya çıxma səbəbi iqtisadi artımdakı çatışmazlıqdan çox kapitalist inkişafın təbiəti kimi qəbul edilmişdir.

Bu mərhələdə sosialist ölkələrdəki gizli iqtisadiyyatlarla bağlı tədqiqatlar da geniş vüsət almışdır. Buna sosial və iqtisadi amillərlə yanaşı, gizli iqtisadiyyatın milli iqtisadiyyatda və kriminallaşmada oynadığı rolun artması və ideoloji xarakter alması da təsir göstərmişdir. Sonuncu, xüsusilə də dövlət sosializminin, komanda sosial-iqtisadi sisteminin etibarsızlığını və deformasiyaya uğramasını üzə çıxarmağa çalışan elmi araşdırma rəhbərləri tərəfindən stimullaşdırılmışdır (Bernabè, 2002:16-20). Çünki Qərbdə sosialist gizli iqtisadiyyatlarına bir növ kapitalizmin o ölkələrdəki uzantısı və o sistemi çökürdəcək amil kimi baxırdılar.

1980-cı illərdə gizli iqtisadiyyatla bağlı tədqiqatların digər bir inkişaf istiqaməti də onun milli sərhədləri aşaraq, beynəlxalq səviyyədə müzakirəyə çıxarılmasıdır. Belə ki, məhz 1983-cü ildə Belfeld şəhərində gizli iqtisadiyyatla bağlı ilk beynəlxalq konfrans keçirilmişdir. Konfransda iqtisadi sistemlərdə müşahidə olunan gizli iqtisadiyyatın müxtəlif problemlərinə həsr olunmuş 40 hesabat dinlənilsə də, gizli iqtisadiyyat anlayışına vahid yanaşma ortaya qoyula bilməmişdir (Prokhorov, 2001:7).

1990-cı illərdə dünya iqtisadiyyatında sürətlənən qlobal inteqrasiya və artan rəqabət gizli iqtisadiyyatın inkişafına müxtəlif istiqamətlərdə təsir göstərmişdir. Bu illərdə qlobal rəqabətdə söz sahibi olmaq istəyən investorların bir qismi istehsal mərkəzlərini əmək xərclərinin daha aşağı olduğu ölkələrə yönləndirdiyi halda, rəqabətdə çətinlik çəkən digər bir qisim isə xərcləri aşağı sala bilmək üçün qeyri-formallığa yönəlmişdir. Bu dövrdə daha aparıcı olan Hernando de Soto rəhbərliyindəki leqalist məktəb gizli iqtisadiyyatı rəsmi normalara əməl etməkdən irəli gələn əmək və digər xərclərdən yaxa qurtarmaq məqsədilə qeyri-rəsmiliyə yönələn subyektlərin formalaşdırdığını irəli sürmüşdür (Латов və Ковалев, 2006 : 114-121; Chen, 2004 : 6). De Soto "Digər Yol" (The Other Path) adlı əsərində göstərir: "Formallıq və qeyri-formallıq arasındakı seçim fərdlərin şəxsi xüsusiyyətlərindən daha çox, onların leqal sistemə daxil olmalarının gəlir və xərci arasındakı nisbətdən asılıdır" (De Soto, 1989:185). Leqalist məktəb gizli iqtisadiyyatın məşğulluq yaratma və əmək xərclərini aşağı salma kimi xüsusiyyətlərini qeyd etməklə yanaşı, gizliliyin iqtisadi həyatı tənzimləyən qanun və inzibati çərçivədəki bir sıra çatışmazlıqlar nəticəsində meydana çıxdığını da göstərirlər. Bu məktəbin nümayəndələrinə görə firmaların iş qurarkən üzləşdikləri bürokratik əməliyyatlar cəncəl və xərc artırıcı olmaya davam etdikcə, firmalar da gizli işləməyə davam edəcəkdir.

Eyni zamanda bu dövrdə, gizli iqtisadiyyatın müxtəlif problemləri beynəlxalq təşkilatların, xüsusilə də Avropa Birliyinin birmənalı şəkildə diqqət mərkəzində olmuşdur. Belə ki, 1991-ci il Cenevrə şəhərində Avropa statistikaçılarının konfransı keçirilmiş və bu konfrans gizli və qeyri-formal iqtisadiyyata həsr edilmişdir. Müntəzəm olaraq keçirilən sonrakı konfrans və seminarlar isə (1992,1993) MDB ölkələrini də əhatə etməklə, gizli iqtisadi sektorun ölçülməsi və monitorinqi məsələləri üzərində dayanmışdır. Bunların məntiqi davamı olaraq, Birləşmiş Millətlər Təşkilatı (BMT), Beynəlxalq Valyuta Fondu (BVF), BƏT və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən hazırlanan BMT-nin 1993-cü il Milli Hesablar Sistemi Konvensiyasında (MNS) da gizli iqtisadiyyatla bağlı bir sıra anlayışlara yer verilmişdir. 1996-cı ilin mayında Avropa İqtisadi Komissiyası, BMT və İƏİT-in birgə keçirilən sessiyasında isə milli hesablar sistemi çərçivəsində digər problemlərlə yanaşı, gizli iqtisadiyyatın miqyasının müəyyən edilməsi ilə bağlı məsələlər də müzakirəyə çıxarılmışdır. Bu çərçivədə AVROSTAT gizli iqtisadiyyatla bağlı xüsusi işçi qrupu da yaradılmışdır. Nəhayət bu sahədə atılan ən mühüm addım 1993-cü il MHS Konvensiyası şərtlərinə uyğun olaraq, BMT, BVF, BƏT, İƏİT və Müstəqil Dövlətlər Birliyi Statistika İdarəsi tərəfindən birgə hazırlanraq 2000-ci ildə Soçi şəhərində qəbul olunan və bütün milli statistika idarələri üçün gizli iqtisadiyyatın ölçülməsi sahəsində əsas metodiki vəsait hesab olunan "Müşahidə edilməyən iqtisadiyyatın ölçülməsi: Bələdçi kitab"ın ("Mavi Kitab") 2002-ci ildə nəşr edilməsidir.

### 4. Müasir gizli iqtisadiyyat nəzəriyyəsi və fənlərarası yanaşma

Klassik iqtisadçıların iqtisad elminin əsaslarını formalaşdırmağa başladığı dövrdə kütləvi istehsaldan çevik ixtisaslaşmış istehsala keçid və ənənəvi əmək bazarı ilə yanaşı, küçə ticarəti, saat hesabı məşğulluq və ya ev işləri kimi fəaliyyət formalarının bu gün olduğu kimi geniş yayılacağını proqnozlaşdıra bilmədiklərini söyləmək mümkündür. Ancaq hal-hazırda gizli iqtisadiyyatın ötəri bir fenomen olmayıb, iqtisadiyyatın fəaliyyət mexanizmində əhəmiyyətli bir yerə malik və özlüyündən aradan qalxmayacaq bir sektor

olduğunu dərk edən iqtisadçılar, bu istiqamətdəki araşdırmalarını getdikcə genişləndirməyə başlamışdır. Əsasən Qərb iqtisadçıları tərəfindən inkişaf etdirilən gizli iqtisadiyyatın müasir nəzəriyyəsi, bu gün rəsmi və ya formal iqtisadiyyatdan kənarda qalan iqtisadi fəaliyyətlərin vahid iqtisadi kateqoriya çərçivəsində tədqiqi, problemin kəmiyyət qiymətləndirməsi, yaranma səbəbləri, doğurduğu sosial-iqtisadi nəticələr və onunla bağlı dövlət siyasətinin formalaşdırılması məsələlərini özündə birləşdirən çoxsaylı və bəzən də bir-birilə kəskin rəqabətdə olan elmi yanaşma və konsepsiyalardan ibarətdir (Schneider və Enste, 2002; Bajada və Schneider, 2005; Altuğ, 1999; Yılmaz, 2006; Erdağ, 2007; Голованов, Перекислов və Фадеев, 2003, Латов və Ковалев, 2006).

Ancaq dünyada gizli iqtisadiyyatla bağlı araşdırmalar geniş vüsət alsa da, problemin çoxaspektliliyi, müxtəlif ölkələrdə fərqli formalarda təzahür etməsi və dərin sosial-iqtisadi və siyasi məzmun kəsb etməsi bu sahədəki elmi baxışların da müxtəlifliyini doğurmuşdur. Mövqelərdəki bu müxtəlifliyi nəzəri tədqiqatçıların iqtisadi proseslərə yanaşmaları, tətbiqi problemlər, həmçinin metodologiya və araşdırma texnikası ilə də bağlı olduğunu söyləmək mümkündür.

Müasir dövrdə gizli iqtisadiyyatla bağlı araşdırma aparan tədqiqatçıların məqsədlərinə nəzər saldıqda, bunların fundamental nəzəri analiz, statistik qiymətləndirmə, sosial və iqtisadi siyasətin optimallaşdırılması, qanunların icra fəaliyyətinin mükəmməlliyinin üzə çıxarılması, iqtisadi təhlükəsizliyin gücləndirilməsi kimi çoxşaxəli olduğunu görmək mükündür. Bu isə problemin tədqiqində iqtisadi, sosioloji, kibernetik və hüquqi yanaşmaları fərqləndirməyimizə imkan verir (Бекряшев və.b, http://newasp.omskreg.ru/bekryash/ch1p1.htm).

İqtisadi yanaşma gizli iqtisadiyyatın iqtisadi siyasət üzərindəki təsirlərinin, iqtisadi resursların istifadəsi və bölüşdürülməsi, etibarlı qiymətləndirmə və ölçmə metodlarının inkişaf etdirilməsi məsələlərini öyrənir. İqtisadi yanaşma eyni zamanda gizli iqtisadiyyatı qlobal, makro və mikro səviyyələrdə tədqiq edir. Qlobal səviyyədə, beynəlxalq gizli iqtisadi münasibətlər (məs. narkobiznes, çirkli pulların yuyulması, kriminal gəlirlər), makrosəviyyədə gizli iqtisadi fəaliyyətlərin iqtisadiyyatın strukturuna, ÜDM-nin istehsalı, bölüşdürülməsi və istehlakı, işsizlik, inflyasiya, iqtisadi artım və digər makroiqtisadi proseslərə təsiri, həmçinin leqallaşdırılması, mikrosəviyyədə isə gizli iqtisadi subyektlərin iqtisadi davranış və qərar qəbul etmə məsələləri və müxtəlif qeyri-leqal bazarlar tədqiq edilir. Sosioloji yanaşmada gizli iqtisadiyyatda sosial qruplar arasındakı qarşılıqlı münasibət, gizli iqtisadiyyat institutları sistemində və ciddi situasiyalarda subyektlərin iqtisadi davranış motivləri ilə bağlı müxtəlif mövqeləri araşdırılır. Kibernetik yanaşma çərçivəsində gizli iqtisadiyyat özünütənzimləyən və idarə olunan sistem kimi qəbul edilir, onun proqnozlaşdırılması və idarə olunmasının iqtisadi-riyazi modelləri, rəsmi sektorla qarşılıqlı əlaqələri və inkişaf qanunları üzrə çıxarılır. Hüquqi yanaşmada isə bu sahədəki qeyri-hüquqi (kriminal da daxil olmaqla) davranışlar öyrənilməklə, əsas diqqət iqtisadi fəaliyyətlərin sosial riskləri, hüquqi vasitələrdən istifadə edərək onların qarşısının alınması və mübarizə tədbirlərinin üzə çıxarılmasına yönəldilir.

Ancaq gizli iqtisadiyyatla bağlı ən müasir tədqiqatlar göstərir ki, problemin öyrənilməsində bu yanaşmalardan yalnız birinə əsaslanmaq uğurlu nəticələr vermir. Bu baxımdan, problemin mürəkkəbliyini nəzərə alan tədqiqatçılar bu sahədə daha çox fənlərarası yanaşmanın (*interdisciplinary approach*) inkişaf etdirilməsi zərurətini irəli sürürlər ki, bu da son illər aparılan tədqiqatlarda özünü

açıq şəkildə biruzə verməkdədir (Schneider və Enste, 2002 : 54-102).

**6. Nəticə**

Tədqiqatlar göstərir ki, gizli iqtisadiyyatın formalaşması və inkişafı tarixi insanlığın tarixi qədər qədimdir. Ancaq, tarixin müxtəlif mərhələlərində müxtəlif tədqiqatçıların problemi araşdırmasına baxmayaraq, bu tipli tədqiqatların sayının intensiv şəkildə artması XX əsrə, xüsusilə iqtisad elmində instusionalizm məktəbinin ortaya çıxmasından sonraya təsadüf edir.

Mövcud ədəbiyyatların təhlili, gizli iqtisadiyyatın formalaşan müasir nəzəriyyəsi və bu istiqamətdə davam edən tədqiqatların, gizli iqtisadiyyat anlayışının dəqiqləşdirilməsi, onun kəmiyyət qiymətləndirməsi, yaranma səbəbləri, doğurduğu sosial-iqtisadi nəticələr və problemlə bağlı dövlət siyasətinin formalaşdırılması məsələləri üzərində dayandığını ortaya çıxarır.

Nəhayət, gizli iqtisadiyyatla bağlı aparılan ən son araşdırmaların təhlili göstərir ki, problemin çoxaspektli xarakterindən irəli gələrək, tədqiqatlarda iqtisadi, sosioloji, kibernetik və hüquqi yanaşmaları ayırmaq mümkündür. Ancaq daha müfəssəl nəticələrin əldə edilməsi məqsədilə son illər həyata keçirilən tədqiqatlarda bütün bu yanaşmaları özündə birləşdirən fənlərarası yanaşmaya (interdiscipilinary approach) üstünlük verildiyi müşahidə edilir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Aktan C.C. (2008), Yeni İktisat Okulları. 2. Baskı, Ankara: Seçkin Yayıncılık. 229 s.
2. Altuğ O. (1999), Kayıtdışı Ekonomi. İstanbul: Türkmen kitabevi. 508 s.
3. Bernabè S. (2002), Informal Employment in Countries in Transition: A conceptual framework. Centre for Analysis of Social Exclusion London School of Economics, CASEpaper 56, London, April, 64 p.
4. Бекряшев А.К., Белозеров И.П., Бекряшева Н.С., Леонов И.В., Теневая экономика и экономическая преступность. Электронный учебник. http://newasp.omskreg.ru/bekryash.
5. Canbay T. (2009), Dünyada Vergileme Anlayışındaki Değişim (Antikçağdan Günümüze). Bursa: Dora Yayınları, 1. Baskı, Ekim, 251 s.
6. Chen M.A. (2004), Rethinking the Informal Economy: Linkages with the Formal Economy and the Formal Regulatory Environment. EGDI-WIDER Conference "Unleasing Human Potential: Linking the Informal and Formal Sectors" Helsinki, Finland, September 17-18.
7. Çelik K., Koçağra S.I., Güler K. (2000), Karapara Aklama (Tanımı, Aşamaları, Yöntemleri ve İlgili Uluslararası Çalışmalar )", Mali Suçlar Araştırma Kurulu (MASAK ), Yayın No : 1, Ankara. 111 s.
8. Çetintaş H., Vergil H. (2003), Türkiye'de Kayıtdışı Ekonominin Tahmini // Doğuş Üniversitesi Dergisi, No. 4(1), s. 15-30.
9. De Soto H. (1989), The Other Path: The Invisibly Revolution in The Third World . New York: Harper and Row.

10. Erdağ N. (2007), Kayıt Dışı: Kara Para, Yolsuzluk. İstanbul: Cinius. 390 s.
11. Friedman M. (2008), (çev. Erberk D., Himmetoğlu N.). Kapitalizm ve Özgürlük. İstanbul: Plato Film Yayınları, 1. Baskı, Nisan.274 s.
12. Gërxani K. (2008), The informal sector in developed and less developed countries: A literature survey / The Economics of the Hidden Economy, Volume I, Edward Elgar Publishing, pp. 87-120.
13. Giray F. (2010), Maliye Tarihi. Gözden Geçirilmiş 3. Baskı, Bursa: Ezgi Yayınları, Eylül, 332 s.
14. Güngör Y. (1997), Enformel Sektör, Enformel İstihdam Biçimleri ve Ekonomide Enformelleşme Eğilimleri // İktisat Dergisi Ağustos-Eylül, s. 59-61.
15. İbn Haldun (2007), Mukaddime. I. Cilt, (Haz: Süleyman Uludağ), İstanbul: Dergah Yayınları, 5. Baskı, Aralık, 625 s.
16. Kalça A. Kayıtdışı Ekonomi ve İktisadi Dalgalanmalar İlişkisi: Türkiye (1968-2005) // Ç. Ü. Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt 17, Sayı 3, 2008, s.211-228.
17. Голованов Н.М., Перекислов В.Е., Фадеев В.А. (2003), Теневая Экономика и Легализация Переступных Доходов. М.: Питер. 303 с.
18. Langlois G., Boismenu J., Lefebvre L., Regimbald P. (2003), 20. Yüzyıl Tarihi. İstanbul: Nehir Yayınları, 2. Baskı, Mart. 556 s.
19. Латов Ю.В., Ковалев С.Н. (2006), Теневая Экономика. М.: Норма. 336 s.
20. Lemieux P. (2007), The Underground Economy: Causes, Extent, Approaches. Montreal Economic Institute Research Paper, Canada, Montreal, November, 30 p.
21. List F. (2010), The National System of Political Economy. London: Longmans, Green and Co., 1909, The Online Library of Liberty, A Project of Liberty Fund, Inc. http://oll.libertyfund.org/title/315 .
22. Marshall A. (2010), The Principles of Economics. London: Macmillian and Co. 8th ed. The Online Library of Liberty, A Project of Liberty Fund, Inc. http://oll.libertyfund.org/title/1676.
23. Musayev A.F., Qəhrəmanov A.Q. (2004), Vergi mədəniyyəti. Bakı: Elm. 288 s.
24. Prokhorov A.B. (2001), The World Unobserved Economy: Definition, Measurement and Optimality Considerations, http://www.msu.edu/~prohorob/a.pdf .
25. Purkis S. (2006), Çevre ve Yarı Çevre Ülkelerde Ekonomide Enformalleşme ve Marjinalleşme Süreçleri // İktisat Dergisi Kasım-Aralık, s. 5 - 18.
26. Schneider F., Enste D.H. (2002), The Shadow Economy: An International Survey. Cambridge: Cambridge University Press. 222 p.
27. Sennholz H.F. (2003), The Undergroud Economy. Ludwig von Mises Institute, Online edition. 27 p.
28. Smith A. (2006), (çev. Haldun Derin). Milletlerin Zenginliği. İstanbul:Türkiye İş Bankası Kültür Yayınları. 1094 s.
29. TÜSİAD (2006), Kayıtdışı Ekonomi ve Sürdürülebilir Büyüme: AB Yolunda Değerlendirme ve Çözüm Önerileri. İstanbul: MİKADO, Aralık. 160 s.
30. Yereli A.B., Karadeniz O. (2004), Kayıt Dışı İstihdam. Ankara: Odak. 257 s.
31. Yılmaz G.A. (2006), Kayıtdışı Ekonomi ve Çözüm Yolları. İstanbul: İstanbul Serbest Muhasebeci Mali Müşavirler Odası. 238 s.

**Багирзаде Эльшан Расул оглы, диссертант**
Азербайджанский Государственный Экономический Университет

**В экономическом науке феномен теневой экономики: одинь взгляд на основных направленни современных исследований**

***Аннотация***

Цель исследования: определения генезиса и эволюции теневой экономики и оценка её современный тенденции.

Методология исследования: общие теоретико-научные методы и подходы.

междисциплинарный и историческо преемственности.

Выводы исследования: история формирования и развития теневой экономики так же многовековая, как история самой человечествы; не смотря на различных этапов истории исследовании ученными данной проблемы, её систематические исследования приобрело развитию в основным XX века, особенно после появления экономической школы институционализма; современной теории теневой экономики состоит из множества отдельных консепции и подходов, связанные с определением самой понятии "теневой экономики", оценивая его размер, причины образования и социально-экономические последствия; экономические, социологические, кибернетические и юридические подходы различаются в исследования теневой экономики.

Ограничении исследования: из-за отсутствие научных исследований в области данной проблемы Азербайджане. ограничевал возможностей представить взгляды по теневой экономики страны.

Практическое значимость исследования: позволяющих воспринимать генезиса и исторического развития, а также современных тенденции в области исследовании о теневой экономики.

Оргинальность и научная новизна исследования: определении основных направлений развития исследований и предоставлении взглядов экономических школ в связанных с теневой экономики, а также являющимся одним из первых научно исследовательских работ на азербайджноязычных литератур.

**Ключевые слова:** экономика, теновая экономика, институционализм, макроэкономика, налогообложения.

Məqalə redaksiyaya daxil olmuşdur: 08.11.10.
Təkrar işlənməyə göndərilmişdir: 18.11.10.
Çapa qəbul olunmuşdur: 03.12.10.